

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 96 (21.506)

26 may 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də "The Business Year" jurnalının baş redaktoru Leland Raysı və jurnalın direktoru xanım Betül Çakaloğlunu qəbul edib.

"The Business Year" jurnalının baş redaktoru Leland Rays Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfəyə, "Cənub Qaz Dəhlizi", "Şahdəniz-2", TANAP və TAP layihələrinin yaradılması və həyata keçirilməsi, mühüm beynəlxalq idman tədbirlərinin, o cümlədən birinci Avropa Oyunlarının nümunəvi təşkilinə və Azərbaycanın çox böyük potensialının dünyada təbliğinə, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı göstərdiyi səylərə, Azərbaycanı əhəmiyyətli transmilli nəqliyyat layihələrinin mərkəzinə çevirdiyinə, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsinə verdiyi böyük dəstəyə, multikultural dəyərlərin təşviqi ilə bağlı beynəlxalq humanitar tədbirlərin keçirilməsi və regionda sülh və təhlükəsizliyin təmin olunması ilə bağlı digər uğurlu fəaliyyətinə görə rəhbərlik etdiyi jurnalın Azərbaycan Prezidenti İlham Əliyevi 2015-ci ildə "Dünyada ilin adamı" mükafatına layiq gördüyünü deyib və mükafatı dövlətimizin başçısına təqdim edib.

Dövlətimizin başçısı "The Business Year" jurnalının "Dünyada ilin adamı" mükafatına layiq görüldüyünə görə minnətdarlığını ifadə edib.



## Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı istifadəyə verilmişdir





Mayın 25-də Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı istifadəyə verilmiş, görkəmli rəssamın abidəsi ucaldılmışdır.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Bəhruz Kəngərli adına Rəssamlar Parkının istifadəyə verilməsi və görkəmli rəssamın abidəsinin ucaldılması münasibətilə tədbir iştirakçılarını və muxtar respublikanın bütün yaradıcı ziyalılarını təbrik edərək demişdir: Bəhruz Kəngərli Azərbaycan rəssamlıq sənətinə yeni üslub və milli ruh gətirən, zəngin yaradıcılıq imkanlarına malik olan vətənpərvər sənətkar idi. O, Azərbaycan rəssamlığında orta əsr miniatür sənətindən realizmə keçidin, bununla da yeni boyakarlıq məktəbinin əsasını qoymuş, bu sənəti təkrarolunmaz forma, janr və təsvir vasitələri ilə zənginləşdirmişdir.

Ali Məclisin Sədri demişdir: Realist rəssamlığın vəzifəsi yalnız həyatın və ya təbiətin surətini çıxarmaq deyil, onu ifadə etmək və yaşatmaqdır. Öz dövrünün reallıqlarını böyük şövqlə kətana köçürən Bəhruz Kəngərli də rəssamlıq sənətini xalqın həyatına yaxınlaşdıraraq ölkəsinin tarixi keçmişini və yaşadığı dövrün ictimai-siyasi hadisələrini dolğun şəkildə əks etdirə bilmişdir. Bəhruz Kəngərlinin ustalıqla yaratdığı "Qaçqınlar" silsiləsi erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı siyasətinin acı nəticələrini əks etdirir. Rəssam qaçqın ömrü yaşayan insanların faciəsini əks etdirərək o dövrdə tarixşünaslıqda qələmə alına bilməyən həqiqətləri sənətin dili ilə gələcək nəsillərə çatdırmışdır. Bəhruz Kəngərlinin təbiət təsvirləri və Naxçıvanın tarixi abidələrinin əks olunduğu əsərləri də böyük sənətkarlıqla işlənmişdir. Rəssamın bu qəbildən olan əsərləri Naxçıvanın qədim tarixinə bələdçi rolunu oynayır. Naxçıvan şəhərindəki Nuh peyğəmbərin məzarüstü türbəsi bərpa olunarkən görkəmli rəssamın "Nuh qəbri" silsiləsindən əsərlərinin də əsas kimi götürülməsi sənətin yaradıcı gücünün ən yaxşı nümunəsidir.

Qeyd olunmuşdur ki, teatr rəssamlığı, qrafika və digər janrlara da müraciət edən, portret janrında dəyərli əsərlər yaradan Bəhruz Kəngərli bütün ömrü boyu Vətəninə, xalqına bağlı insan olmuş, mədəniyyətimizin inkişafı naminə yorulmadan çalışmışdır. Azərbaycanın görkəmli ədəbiyyatşünas-alimi Məmmədcəfər Cəfərov öz xatirələrində



yazırdı ki, Bəhruz Kəngərli keçmiş Puşkin küçəsində, yəni indi tədbir keçirilən bu ərazidə fərdi sərgi düzəldərək yoldan keçənləri əsərlərinin sərgisinə baxmağa çağırırdı. Maddi çətinliklərə baxmayaraq, gənclərə rəsm sənətinin sirlərini öyrətmək üçün dərnəklər açan Bəhruz Kəngərli onların təhsil alması qayğısına da qalırdı. Bu baxımdan Bəhruz Kəngərli şəxsiyyətini yalnız rəssam kimi deyil, həm də Azərbaycan xalqının görkəmli ziyalısı kimi dəyərləndirmək, tədqiq etmək, öyrənmək və öyrətmək lazımdır. Ümummilli liderimiz Heydər Əliyev Bəhruz Kəngərli şəxsiyyətinə və onun milli sərvətimizə çevrilən zəngin irsinə yüksək qiymət verərək deyirdi: ***"Bəhruz Kəngərli nadir istedada malik insan idi. O, Azərbaycan xalqının professional rəssamlıq sənətində ilk rəssamdır. Onun əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur".***

Ali Məclisin Sədri demişdir: Əgər Əcəmi Naxçıvanı Azərbaycan memarlıq sənətində yeni bir məktəbin əsasını qoymuşdursa, görkəmli fırça ustası Bəhruz Kəngərli də Azərbaycan rəssamlığında realizm məktəbini yaratmışdır. Onun sənəti daim yaşayan sənətdir, yaradıcılığı rəssamlıqda yeni məktəbdir. Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkının istifadəyə verilməsi və abidəsinin ucaldılması da Bəhruz Kəngərli yaradıcılığına və şəxsiyyətinə göstərilən ehtiramın daha bir ifadəsidir. Belə bir tarixi gündə "Naxçıvan – bəşəriyyətin beşiyi" Üçüncü Beynəlxalq Rəsm Festivalının keçirilməsi məmnunluq doğurur.

Festivala mühüm əhəmiyyət verdiyini bildirən Ali Məclisin Sədri qonaqları salamlamış, Bəhruz Kəngərli abidəsinin açılışında və "Naxçıvan – bəşəriyyətin beşiyi" rəsm festivalında iştiraklarına görə onlara təşəkkürünü bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək demişdir ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yeni bina ilə təmin olunmuş, rəssamlara hər cür şəraiti olan emalatxanalar verilmiş, onların albom-kataloqları nəşr olunmuşdur. Gənc rəssamların formalaşması da diqqətdə saxlanmış, Naxçıvan Dövlət Universitetində təsviri incəsənət və rəsmxətt, Naxçıvan Müəllimlər İnstitutunda təsviri incəsənət müəllimliyi ixtisasları açılmışdır. Görkəmli şəxsiyyətlərin Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olan zəngin bədii irsinin xalqımızın milli sərvəti kimi qorunması və gələcək nəsillərə çatdırılması sahəsində də mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 noyabr tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkının yaradılması Bəhruz Kəngərli irsinə göstərilən diqqətin, muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin daha bir ifadəsidir. Ülviyyə Həmzəyeva rəssamlıq sənətinin inkişafına göstərdiyi diqqətə görə muxtar respublika rəssamları, eləcə də beynəlxalq rəsm festivalının bütün iştirakçıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Rəssamlar İttifaqının katibi, Xalq rəssamı, professor Ağəli İbrahimov demişdir ki, Bəhruz Kəngərli zəngin yaradıcılıq yolu keçmişdir. Onun əsərləri Azərbaycan rəssamlıq sənətinin dəyərli nümunələridir. Ölkəmizdə görkəmli rəssamın yaradıcılığına daim yüksək qiymət verilmiş, yubileyləri qeyd olunmuş, sərgiləri açılmışdır. Naxçıvan şəhərində rəssamın adını daşıyan Rəssamlar Parkının istifadəyə verilməsi, abidəsinin ucaldılması rəssamlar tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Artıq üçüncü dəfədir ki, Naxçıvanda beynəlxalq rəsm festivalı keçirilir. Hər il bu festivalda iştirak edən rəssamların sayının artması da qədim diyarda sənətə verilən qiymətin nəticəsidir. Muxtar respublika inkişaf edir,

Ardı 2-ci səhifədə






müasir görkəm alır. Artıq tarixiliklə müasirliyin vəhdətində inkişaf edən, gözəlləşən Naxçıvan şəhərinin özü də sənət əsərini xatırladır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Əliyev çıxış edərək demişdir: Bu gün qədim diyarımızda Bəhruz Kəngərli adına Rəssamlar Parkının və görkəmli rəssamın abidəsinin açılışı muxtar respublikamızın hər bir ziyalısını ürəkdən sevindirir. Portret və mənzərə janrında, tarixi mövzuda yaratdığı ölməz əsərləri ilə qədim diyarımızın sənədli tarixini yaradan Bəhruz Kəngərli bu gün yenidən doğulur. Bəhruz Kəngərli qarış-qarış gəzib-dolaşdığı yurdumuza bu gün bir rəssam kimi yenidən qayıdır. Muxtar respublikanın yaradıcı ziyalıları yaradılan bu parkı və burada ucaldılan heykəli ulu öndər Heydər Əliyevin sənətə və sənətkara yüksək diqqət və qayğı missiyasının davamı kimi dəyərləndirirlər.

Sonra Asim Əliyev Bəhruz Kəngərliyə həsr etdiyi "Bəhruz ömrü" şeirini oxumuşdur:

Zamanın ağrıları dağ idi ürəyində,
Gözü nələr görürdü, qəlbi nələr çəkirdi...
Vətənin ağrısını, dərdini, sevincini
Bir boylu çinar kimi ürəyinə "əkirdi".

Nəfəsiydi bu torpaq-rənglərdən,
boyalardan
Ona ilmə vururdu-xalılar toxuyurdu.
Nəğməli bülbül kimi səhərdən axşamadək
Hər gülə, hər çiçəyə nəğmələr oxuyurdu.

Yurdundan, yuvasından qaçqın, köçkün
düşənlər
Onun tablolarında canlı qəhrəman idi.
Bu qanlı cinayətə dağ da, daş da dözməzdi,
Bu dərdə dözən ancaq yenə də insan idi.

Tarix yaradırdı o, ölməz fırçası ilə,
Onun əsərlərində zamanın özü vardır.
Necə varsa çəkmişdi bir vaxt Nuhun
qəbrini,
Ucaltdıq Nuh türbəsin-Bəhruz da
bəxtiyardır.

Ömrünün illərini sovurmadı boşuna,
Qısa ömrünü belə yaşadı insan kimi.
Zamanın sınağından, çətin imtahanından
Çıxıb Bəhruz, yaşayır əsil qəhrəman kimi.

Türkiyənin FEMİN ART Beynəlxalq Assosiasiyasının üzvü, rəssam-yazıçı Hülya Sezgin tədbirdə çıxış edərək demişdir ki, bəşəriyyətin beşiyi olan Naxçıvan qədim tarixi, zəngin mədəniyyəti ilə bura gələn qonaqlarda böyük təəssürat doğurur. Naxçıvanın müasir inkişafı, tarixi, mədəniyyəti, burada yaşayan insanların qonaqpərvərliyi rəssam və yazıçı kimi müraciət etdiyim əsas mövzulardır. Görkəmli rəssam Bəhruz Kəngərlinin adını daşıyan Parkın və onun abidəsinin istifadəyə verilməsinə böyük əhəmiyyət veririk. İnanırıq ki, gələcəkdə bu parkda rəssamlar vətənpərvər sənətkar Bəhruz Kəngərli sənətindən ilham alaraq dəyərli əsərlər yaradacaqlar. Sənət dostluq, birlik və sülh deməkdir. Hər bir sənət əsəri tariximizi yaşadan, bu günümüzü gələcəyə çatdıran vasitələrdir. Naxçıvan şəhərindəki Möminə xatın türbəsinin üzərində yazıldığı kimi: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".

Gürcüstan-Azərbaycan Assosiasiyasının rəhbəri Tamar Lamparadze demişdir: "Naxçıvan – bəşəriyyətin beşiyi" Üçüncü Beynəlxalq Rəsm Festivalı müxtəlif ölkələrdən olan rəssamlar arasında sənət və dostluq simvoluna çevrilmişdir. Bu festivalda, eləcə də Bəhruz Kəngərli adına Rəssamlar Parkının açılışında iştirak etmək mənim üçün böyük məsuliyyət deməkdir. Böyük Azərbaycan rəssamı Bəhruz Kəngərli Gürcüstanda da sevilir, onun yaradıcılığına yüksək qiymət verilir. Çünki Bəhruz Kəngərlinin həyatının bir hissəsi Tiflisdə keçmiş, orada təhsil almışdır. Naxçıvanlı rəssamlarla yaradıcılıq əlaqələrini gücləndirmək, qarşılıqlı olaraq festival və sərgilərdə iştirak etmək üçün bundan sonra da səylə çalışacağam.

Sonra Ali Məclisin Sədri Bəhruz Kəngərli adına Rəssamlar Parkının açılışını etmiş, görkəmli rəssamın abidəsi önünə gül qoymuş, "Naxçıvan – bəşəriyyətin beşiyi" Üçüncü Beynəlxalq Rəsm Festivalının iştirakçıları ilə xatirə şəkli çəkdirmişdir.

Parkda açıq havada rəssamların işləməsi üçün hər cür şərait yaradılmış, yaşıllıq zolaqları salınmış, müasir işıqlandırma sistemi qurulmuşdur.

Ali Məclisin Sədri və tədbir iştirakçıları Bəhruz Kəngərli Muzeyinə də baxmışlar.

Məlumat verilmişdir ki, muzeyin ekspozisiyası zənginləşdirilmiş, Bəhruz Kəngərlinin əsərlərinin böyüdülmüş fotosurətləri hazırlanmışdır. Hazırda muzeyin fondunda, ümumilikdə, 830 eksponat vardır ki, bunlardan da 353-ü ekspozisiyada sərgilənir. Bu əsərlərdən 51-i orijinaldır. Həmçinin muzeydə Bəhruz Kəngərlinin əsərlərindən ibarət müxtəlif illərdə nəşr olunmuş 3 ədəd albom-kataloq, rəssama həsr olunmuş poçt markaları və Naxçıvan Televiziyasının hazırladığı "Sənətin Bəhruz zirvəsi" filmi, rəssamın fotoşəkilləri, şəxsi əşyaları, məktəb illərinə aid sənədlər və rəssamlıq ləvazimatları nümayiş olunur.

Muzeyin binasında XX əsrin əvvəllərində pedaqoji texnikum fəaliyyət göstərmiş və 1936-1939-cu illərdə ulu öndər Heydər Əliyev burada təhsil almışdır. İkinci mərtəbədə yerləşən birinci ekspozisiya zalı ulu öndər Heydər Əliyevin xatirə otağıdır. Bu otaqda ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif anlarını əks etdirən rəsmlər, ulu öndərin Bəhruz Kəngərli haqqında söylədiyi müdrik fikirlər, öz əli ilə çəkdiyi rəsm əsəri nümayiş etdirilir.

Azərbaycan Rəssamlar İttifaqının üzvü, Xalq rəssamı Arif Hüseynov qrafika üslubunda işlədiyi Bəhruz Kəngərlinin portretini muzeyə hədiyyə etmişdir.

Muzeylə tanışlıqdan sonra Ali Məclisin Sədri tədbirin iştirakçıları olan gənc rəssamlarla, Naxçıvan Dövlət Universitetinin təsviri incəsənət və rəsmxətt, eləcə də Naxçıvan Müəllimlər İnstitutunun təsviri incəsənət müəllimliyi ixtisasları üzrə təhsil alan tələbələrlə görüşmüş, onlara Bəhruz Kəngərli yaradıcılığından bəhrələnmələri barədə tövsiyələr vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Respublika Günü münasibətilə tədbirlər keçirilib

***YAP Şərur Rayon Təşkilatı 28 May – Respublika Gününə həsr olunmuş tədbir keçirib. Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev tariximizin parlaq səhifələrindən birini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, az vaxt ərzində süquta uğramasının səbəblərindən, müstəqilliyimizin bərpası və qorunub saxlanılması istiqamətində görülən işlərdən bəhs edib.***

Vurğulanıb ki, xalqımız daim qəlbində azad yaşamaq, müstəqil dövlətin vətəndaşı olmaq ümidini yaşadıb və bu yolda çətin mübarizələrdən keçib. Ötən əsrin əvvəllərində belə bir imkan yaranıb və 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası Azərbaycanın dövlət müstəqilliyi haqqında İstiqlal Bəyannaməsini qəbul edib. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktının qəbulu ilə Xalq Cümhuriyyəti forması elan olunub. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilib, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilib. İstiqlal Bəyannaməsində demokratik dövlətə məxsus atributların dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirib.

Qeyd olunub ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi qısa müddət ərzində Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq kimi prinsipləri özündə ehtiva edən İstiqlal Bəyannaməsi yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca istiqamətlərini dünyaya bildirib.

Tarixi təcrübə göstərir ki, müstəqilliyi qoruyub-saxlamaq bu qiymətli sərvəti əldə etməkdən qat-qat çətindir. 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti xarici və daxili siyasət amilləri ilə izah olunan mürəkkəb bir şəraitdə fəaliyyət göstərib. Gənc Azərbaycan dövləti həm region ölkələri, həm də Azərbaycanın daxili siyasi, etnik qüvvələri tərəfindən birmənalı qarşılanmayıb. Beynəlxalq aləmdə baş verən dəyişikliklər və cümhuriyyət rəhbərliyinin buraxdığı siyasi səhvlər nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti yalnız 23 ay yaşaya bilib.

Daha sonra ötən əsrin sonlarında müstəqilliyin yenidən bərpa olunması istiqamətində respublikamızda aparılan azadlıq mücadiləsi yolunda baş vermiş faciəli hadisələr, rastlaşdığımız maneələr, ciddi təhlükələr xatırladılaraq ümummilli lider Heydər Əliyevin böyük çətinliklər bahasına müstəqilliyimizin qorunması, möhkəmləndirilməsi, sarsılmaz və əbədi olması istiqamətində gördüyü misilsiz xidmətlərdən ətraflı bəhs edilib, bugünkü irəliləyişə nail olmağımızın səbəbləri qeyd olunub.

YAP Şərur Rayon Təşkilatı İdarə Heyətinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Nüsrət Həsənov, şura üzvü Ramin Şükürov, ərazi ilk partiya təşkilat katibləri Ofeliya İbrahimova, Məhərrəm Rəhimov, Amin Əliyev və digərləri diskussiya şəklində keçən tədbirdə xalqımızın qeyd etdiyi bayramlar sırasında 28 May – Respublika Gününün böyük əhəmiyyət daşıdığını, azadlıq mücadiləmizin unudulmaz bir səhifə olduğunu vurğulayıb, 1991-ci ildə yenidən bərpa olunmuş müstəqilliyimizin möhkəmlənməsi, sarsılmaz, daimi və əbədi olması istiqamətində ulu öndərimiz Heydər Əliyev siyasətinin mahiyyətindən söz açıblar.

**Elman MƏMMƏDOV**

Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında da Respublika Gününə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev açaraq bildirib ki, 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti tariximizə böyük hadisə kimi daxil olub. Həmin dövrdə son dərəcə cəsarətli bir addım kimi qiymətləndirilən demokratik dövlət modelinin yaradılması – parlamentli respublikanın qurulması Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı idi. Dövlət quruculuğu istiqamətində ilk günlərdən qəti tədbirlər görülməsinə başlanılıb. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

Vurğulanıb ki, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Azərbaycanın dövlət müstəqilliyinin əbədi, dönməz xarakter alması isə ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Tədbirdə Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Qadınlar Şurasının sədri Könül İsmayılovanın, təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin sədri Elvin Məmmədovun məruzələri dinlənilib.

Məruzələrdə qeyd olunub ki, yarandığı gündən bəri demokratik idarəçilik prinsiplərinin bərqərar olması istiqamətində mühüm addımlar atan Azərbaycan Xalq Cümhuriyyəti həm də bütün Şərqin, müsəlman və Türk dünyasının tarixinə ilk parlamentli respublika kimi düşüb.

Diqqətə çatdırılıb ki, ümummilli liderimiz Heydər Əliyev bütün həyatını Azərbaycanın müstəqilliyinə həsr edib. 1990-cı il iyulun 22-də ulu öndər Heydər Əliyevin Naxçıvana qayıdışı və buradan başlanan müstəqillik mübarizəsi Azərbaycanın müstəqilliyinin əldə olunmasının əsasını qoyub. 1990-cı il noyabrın 17-də ulu öndərimizin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında ümummilli liderimizin təşəbbüsü ilə "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edilib, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunub.

Vurğulanıb ki, ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə, 1993-cü il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 75 illik yubileyi də müstəqil ölkəmizdə ilk dəfə Naxçıvanda qeyd edilib.

Dahi şəxsiyyətin 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan düşdüyü bəlalardan xilas edilib, dövlət müstəqilliyimiz möhkəmləndirilib, cümhuriyyətçilik ideyaları bərqərar olunub. Xalqımızın böyük oğlunun 1998-ci il 30 yanvar tarixli Sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi ölkəmizdə geniş qeyd edilib.

Ümummilli liderimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət verir. Cümhuriyyət tariximizin 90 və 95 illik yubileyləri ölkəmizdə geniş qeyd olunub.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilmiş bir qrup gəncə üzvlük vəsiqəsi təqdim edilib.

**Muxtar MƏMMƏDOV**

*Yer üzünə insan oğlunun ilk addım atmasından bu yana min illər, əsrlər, qərinələr keçib, Adəm övladları mağaralarda yaşamlarını sonlandırdıqdan sonra özləri üçün evlər inşa edib nəsillərini davam etdiriblər. Yan-yörədəki heyvanları ovlayıb gün keçiriblər, əkib-becəriblər, su quyuları, kanallar qazıblar. Sonra evlərin qarmaqarışıq olduğunu görüb yavaş-yavaş planlı iş görməyə başlayıblar. Sonra yığışıb elin-obanın dərdini-sərini, xeyirini-şərini bölüşmək üçün meydanlar yaradıblar. Meydanlar elə yerdə olub ki, bütün yollar orada kəsişib, hamının qısa zamanda oraya toplaşmasına imkan yaranıb. Meydanlarda sıx çətirli ağaclar əkilib, kəhrizlər çağlamağa başlayıb, bu kəhrizlərin suyu elə meydanların bir tərəfində inşa edilən hamamlara axıb, insanlar paklanıb, təmizləniblər.*



# Bu şəhər həmin şəhər deyil...

Sonra həmin yerin adamları görüblər ki, bu dünyada tək deyillər. Əli qılınc tutan başqa tayfalar, qəbilələr qənimət əldə etmək üçün tez-tez hücumlar edirlər. Onda düşünüblər ki, bu hücumların qarşısını almaq yalnız uca, möhkəm divarlar tikilməsi nəticəsində mümkün ola bilər. Bax beləcə qala-şəhərlər salınıb, insanlar əmin-amanlıqlarını elə o qala divarları arxasında sürdürüblər. Qala-şəhərlər hərb texnologiyasının inkişafı ilə yavaş-yavaş öz funksiyasını itirməyə başlayıb, qalalar şəhərlərin içində tarixin bir yadigarı kimi mühafizə edilib. Şəhərlər isə böyüdükcə böyüyüb. İnsanlar öz şəhərlərini sevib əzizləyiblər, onunla fəxr ediblər, şəninə şeirlər, nəğmələr qoşublar, bayatılar söyləyiblər. Bir sözlə, hər kəsə doğulub boya-başa çatdığı şəhəri doğma olub. "İnsanlar yaşadıqları şəhərə, şəhər isə qoynunda yer verdiyi insanlara oxşayır" ifadəsi də deyəsən buradan yaranıb. Tarix boyu yer üzərində minlərlə şəhər olub. Ancaq onlardan çox azı bu günə qədər varlığını qoruya bilib. Biri zəlzələdən dağılıb, biri, necə deyərlər, vəlvələdən. Biri vulkan külü altında qalıb, biri sellərə-sulara qərq olub, digəri isə amansız müharibələrin qurbanına çevrilib, viranə qalıb. Ancaq elə şəhərlər də olub ki, bütün keşməkeşlərə rəğmən bu günə qədər varlığını saxlaya bilib. Tanrı özü bu şəhərləri qoruyub, hifz edib, cahana hökm edən şahlar, xaqanlar bu şəhərləri yer üzündən silə bilməyiblər. İnsanlar isə yaşadıqları şəhərləri mühafizə edib, qurub-yaradıb, gələcək nəsillərə ötürüblər. Elə Naxçıvan şəhərini də bu qəbildən olan yaşayış məskənləri sırasına daxil etmək olar. Baş ucunda başı qarlı dağların, qənşərində adı dillər əzbəri olan Xan Arazın olduğu bu şəhərə tarix Naxçıvan adı verib. O Naxçıvan ki, min illərin soyuq ruzigarları qarşısında məğrur dayanıb, yada-namərdə qoynunda yer verməyib. Gün o gün olub ki, ona doğma, yaxın şəhərlərə aparan yolu, insanlara, torpaqlara nicat verən suyu, gözəlliyinə gözəllik qatan ağacları, evləri isidəcək mavi yanacağı kəsilsə də, doğma insanlarından üz döndərməyib, baltalanan ağaclarına, varı-yoxu yağmalanan fabrik-zavodlarına rəğmən dönük çıxmayıb, həmişə sədaqətli olub.

Ana öz övladlarını qarşılıqsız məhəbbətlə sevdiyi kimi, o da öz sakinlərini sevib, əzizləyib. Səbirlə gözləyib, gözləyib. Heç vaxt ruhdan düşməyib, peşman olmayıb. Bilib ki, gec-tez bu şəhərin çətin günlərinə ürəkdən kədərlənən, ona ürəyi yanan, ona nicat verəcək biri tapılacaq. Nəhayət, o gün gəlib çatıb. Bu şəhərdə doğulub boya-başa çatmış, onu canından çox sevən xalqımızın böyük oğlu Heydər Əliyev son nəfəsində olan şəhəri yenidən həyata qaytarmaq, qanayan yaralarına məlhəm qoymaq üçün buraya qayıdıb. Beləcə bu şəhər üçün zülmətin qapıları birdəfəlik bağlanıb, işığa, inkişafa, tərəqqiyə aparan yolun qapıları taybatay açılıb. O vaxtdan bu günə nə az, nə çox, düz 26 il vaxt keçib. Bütün bu illər ərzində şəhər keçmişin ona yadigar qoyduğu "xəstəliklərdən", çatışmazlıqdan, diqqətsizlikdən aranıb, qayğıkeş insanların sarsılmaz iradəsi nəticəsində, sözün həqiqi mənasında, qaynar həyatın hökm sürdüyü şəhərə çevrilib. Özü də təmizliyi, səliqə-sahmanı, əmin-amanlığı, asayişi, yaşıllığı ilə dünyanın bir çox yaşayış məskənlərinə nümunə olacaq bir şəhərə.

**N**ədən, haradan başlayacağımı düşünərkən ilk ağlıma gələn, daha doğrusu, qulağımda çınlayan, doxsanıncı illərin əvvəllərində, şəhərin baş meydanında Kalaşnikov avtomatından hara gəldi atılan, yoldan keçənləri yerə uzanmağa, vahimə içində ora-bura qaçmağa vadar edən güllə səsləri oldu. Bu hadisə o zamanın Naxçıvan şəhəri üçün adi hala çevrilmişdi və demək olar ki, hər gün baş verirdi. İndi o güllələr atılan yerdə şəhərin bugünkü asayişinin, əmin-amanlığının əsasını qoyan dahi rəhbərimizin möhtəşəm abidəsi ucaldılıb. Bu meydan al-əlvan gül-çiçəklər, büllur kimi bərq vuran fəvvarələr məkanına çevrilib. Burada indi silah səsləri deyil, günün istənilən saatında uşaqların şən-şaqraq gülüş, rahat skamyalarda oturub şirin söhbət edən insanların səsləri gəlir.

**Ə**n çox insanların əziyyət çəkdikləri aylar qış fəslinə təsadüf edib. Bu aylarda insanlar odun-kömür tapmaq üçün bütün ələqədar təşkilatlara müraciət edir, cavab tapmadıqda, səsləri-ünləri heç bir yerə yetmədikdə əlac xaos dövründə zəifin ən yaxşı silahına çevrilən baltaya qalırdı. Bağlarda-bağçalarda ağaclar qırılıb tökülür, bunun müqabilində evlər isidilirdi. İndi isə şəhərin istənilən ünvanında, istənilən iş yerində mavi yanacaq şöləlnir. Əvvəllər qar yağmasından, şaxta olmasından oddan qorxan kimi qorxan şəhər əhalisi qış aylarında yalnız yağan qardan zövq alır.

**Q**aranlıq öz qalın pərdəsini bu şəhərin üzərinə çəkən kimi hər yer qapqara zülmətə bürünürdü. Tək-tük yerdə görünən işıqlar dövlət əhəmiyyətli idarələrin, müəssisələrin binalarından süzüləndə bu şəhərdəki hər kəs oradan evinə gizlincə necə elektrik xətti çəkmək haqda düşünürdü. O gün olmazdı ki, məhəllələrdə həddindən artıq yüklənmiş transformatorlardan partlama səsləri gəlməsin. İnsanlar da artıq buna alışmışdı. Bir də görürdün ki, məhəllə sakinlərindən biri əlinə mis məftil alıb transformatorların qoruyucusunu əvəzləməyə çalışır. Bəlkə də, buna görə idi ki, transformatorlar naşı ustaların əlindən bezara gəlib, o "ustaları" elə oradaca yerə yapışdırırdı. Sonra da bütün məhəllə bir nəfər kimi toplaşırdı ələqədar orqanların qapısına. Xülasə, çox çətin günlər idi. Ancaq şəhər sakinləri üçün o illər çox-çox arxada qalıb. Gecələr şəhəri gur işıq seli öz ağuşuna alır. Yollar, küçələr, prospektlər, parklar, xiyabanlar sanki o günlərin acığına nurdan don geyir, qaranlığı aydınladırlar. Bakı şəhərindən Naxçıvana təyyarə ilə səfər edənlərin şəhərimizi qaranlıqda bərq vuran inciyə bənzətməsi heç də təsadüfi deyil.

**Ş**əhəri son illərdə inanılmaz dərəcədə dəyişdirən amillərdən biri də burada genişmiqyaslı yaşıllaşdırma işlərinin aparılmasıdır. Yanacağın yoxluğu səbəbindən ağacların, demək olar ki, kökünün kəsildiyi şəhəri indi yamyaşıl çinarlar, şamlar, küknarlar, müxtəlif meyvə ağacları, güllər, çiçəklər bəzəyir. Hər bir ağac, hər bir gül kolu körpə uşaq kimi qulluq görür. Bəlkə də, buna görədir ki, şəhərə gələn hər bir qonaq "Bu şəhərdə yaşamağa dəyər", – deyir.

**İ**llər ötdükcə şəhərlər də insanlar kimi qocalır, – deyənlərin fikri ilə heç bir zaman razı olmamışam. Ona görə razı olmamışam ki, doğma Naxçıvan şəhərini ötən 20 il heç qocaltmayıb, əksinə, cavanlaşdırıb. Çətin illərin, çətin ayların ağır yükünü daşımaqdan beli bükülən bu şəhər son illərdə görülən işlər nəticəsində qamətini düzəldə bilib. İndi şəhərimizi bir-birindən gözəl binalar, evlər, bağ-bağçalar, şüşə kimi hamar yollar, körpülər bəzəyir. Naxçıvandan uzun müddət ayrılmış insanlar bir daha bura qayıdanda, şəhərin sürətlə gözəlləşdiyini görəndə heyrətlərini gizlədə bilmir, burada doğulub-böyüdüklərindən fəxarət hissi ilə danışırlar. Bəli, bu şəhər haqda ürəkdolusu danışmağa, onu vəsf etməyə istənilən qədər əsas var.

**C**anım Azərbaycanın ən dilbər guşələrindən biri olan muxtar respublikanın paytaxtı indi elmi mərkəzlər, universitetlər, institutlar, kolleclər şəhəridir. Bu gün şəhərdə binaları və texniki imkanları dünyanın ali təhsil ocaqlarından fərqlənməyən orta məktəblər var. Bu elm və təhsil müəssisələrində dünyanın ən qabaqcıl texnologiyalarından, tədris metodlarından istifadə edilir. Naxçıvan Azərbaycanın gələcəyi üçün minlərlə gənc – savadlı, intellektli, yaradıcı, təşəbbüskar kadrlar yetişdirir. Bu gün Naxçıvan ziyalılar şəhəridir.

**A**rtıq bu şəhərdə heç kim səhhətində problemlər olduqda uzun məsafələr qət edib başqa ölkələrə üz tutmur, yaxşı tibb ocağı, yaxşı həkim axtarmır. Bu gün Naxçıvan şəhərində ən müasir avadanlıqlarla təchiz edilmiş tibb ocaqları var. Dünyanın inkişaf etmiş ölkələrinin səhiyyə ocaqlarında istifadə olunan belə avadanlıqlarla təchiz olunmuş tibb müəssisələri "insan ən böyük kapitaldır" deyimini bir daha təsdiqləyir. Artıq bu ünvanlara tez-tez müraciət etməyə də ehtiyac yoxdur. Çünki həkim briqadaları mütəmadi yerlərdə olur, insanların səhhəti ilə maraqlanırlar. Həkimlər xəstəxanadan zəng edərək insanları profilaktik müayinələrə cəlb edirlər. Paytaxt Bakı şəhərindən gəlib humanitar aksiyalar keçirilməsini də əlavə etsək, naxçıvanlıların hansı qayğı əhatəsində olduğunu görərik.

**H**əmişə yolumu Naxçıvanqaladan salanda, oradakı muzeyi ziyarət edəndə, tarixin daş yaddaşı olan eksponatlara baxanda, qala bürclərinin daş əzəmətinə tamaşa edəndə bu qalanın dünəni ilə bu gününü müqayisə etmişəm. Ötən günləri yada salanda ağlıma uçuq, baxımsız divarlar, taleyi ilə az qala barışmış, təslim olmağa hazır olan bürclər gəlir. Bu gün həyatının ikinci baharını yaşayan qala öz məğrur duruşu ilə gələnləri heyran edir. Naxçıvan şəhərinin qədimliyinin, əzəmətinin daş nümunəsi olan bu qala şəhərin simvoluna çevrilib. İndi Naxçıvan şəhərində bərpa olunaraq yenidən həyata qaytarılan tarixi abidələr çoxdur. Qaytarılan təkcə abidələr deyil, qan yaddaşımız, daşlaşan tariximiz, bu xalqın möhtəşəm keçmişidir. Məscidləriylə, qalalarıyla, hamamlarıyla, kəhrizləriylə Naxçıvan şəhəri tarixə ayna tutur, onu işıqlandırır.









**A**zərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim diyarın paytaxtı indi beynəlxalq elmi konfranslara, idman tədbirlərinə, festivallara, çempionatlara ev sahibliyi edir. Bir zamanlar əməlli-başlı futbol sahəsi olmayan bu şəhərdə indi ən müasir tələblərə cavab verən idman qurğuları var. Dünyanın aparıcı ölkələrindən gələn qonaqlar da etiraf edirlər ki, ölkələrində bu qədər hərtərəfli təmin edilmiş idman qurğuları, mehmanxanalar yoxdur. Bu, məncə, Naxçıvan şəhərinin son illərdəki inkişafının təntənəsi, dövlətimizin gələcəyimiz olan gənclərin sağlam böyüməsinə göstərdiyi diqqətin göstəricisidir.

**N**axçıvan şəhəri bir zaman işsizlər şəhəri kimi tanınsa da, indi iş adamlarının, dövlət qulluqçularının, müxtəlif peşə sahiblərinin, xalq sənətkarlarının, incəsənət adamlarının şəhəridir. Hər kəs öz sahəsində yaradıcı olmağa çalışır, ölkəmizin gələcəyi, dövlətimizin qüdrətlənməsi üçün səy göstərir. Dövlətimizin əhalinin məşğulluğunu təmin etmək üçün atdığı ardıcıl və qətiyyətli addımlar işsizi iş adamı, evsizi ev sahibi edib. Gənc ailələrin sosial müdafiəsi gücləndirilib, kiçik sahibkarlığa diqqət artırılıb, fiziki imkanları məhdud insanların bir sıra sosial layihələr çərçivəsində məşğulluğu təmin edilib. Bu şəhər yeganə şəhərlərdəndir ki, bütün imkanlar sakinlərin yaxşı yaşaması, rahat şəraitdə işləməsi və istirahət etməsi üçün səfərbər edilib.

**H**ər dəfə səfərdən, yad ellərdən doğma diyara qayıdanda bu şəhərə çatmağa, onun küçələrində addımlamağa, şəhərin ən qiymətli incisi olan insanlar ilə söhbət etməyə tələsmişəm. **E**lə olub ki, uzaqdan bu şəhərin möhtəşəm binaları görünəndə uşaq kimi sevinmişəm. **Y**urdumun paytaxtını bütün şəhərlərdən doğma, əziz bilmişəm. **D**aşından tutmuş suyuna, ağacına, havasına sonsuz sevgi, məhəbbət bəslədiyim bu şəhərin vurğunu olmuşam. **Ə**trafından mərkəzə kimi istedadlı bir rəssamın incə bir zövqlə işlədiyi bir mənzərəyə bənzəyən bu şəhər ulu öndərimiz Heydər Əliyevin yaratdığı Azərbaycan adlanan şah əsərin qızıl hərflərlə yazılmış səhifəsidir. **R**əhbərin, yol göstərənin bələdçiliyi ilə yenidən qovuşduğumuz məkandır. **Ə**n **L**ayiqli **İ**nsanların **Y**urdu, **E**vi, **V**ətənidir.

**BURA NƏQŞİ-CAHANDIR!**

**Səbuhi HÜSEYNOV**

# Naxçıvanda "Heydər Əliyev kuboku" uğrunda futbol üzrə turnir keçirilir

*Mayın 25-də Naxçıvan Muxtar Respublika Stadionunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda futbol üzrə turnirin açılış mərasimi keçirilib.*

Açılış mərasimindən öncə turnir iştirakçıları ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Turnirin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsinin və idmanın inkişafına göstərilən dövlət qayğısından bəhs edib. Bildirilib ki, Azərbaycanda idmanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ölkə başçısı tərəfindən ulu öndərin siyasətinin uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Yaradılan müasir idman infrastrukturu respublikamızda beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsinə imkan verir.





Bildirilib ki, futbola dövlət qayğısını artırmaq, onun maddi-texniki bazasını inkişaf etdirmək, futbolun elmi-metodiki və normativ-hüquqi bazasının yaradılmasını və təkmilləşdirilməsini təmin etmək məqsədilə 2005-ci il oktyabrın 10-da ölkə başçısı tərəfindən "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı" təsdiq edilib. Dövlətimizin gənclərə və idmana göstərdiyi diqqət nəticəsində muxtar respublikada yeni idman qurğuları tikilərək gənclərimizin istifadəsinə verilib. Bu gün muxtar respublikada 9 stadion və 20 mini-futbol meydançası futbolçuların istifadəsindədir.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev turnir iştirakçılarına uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək deyib ki, idman həm ölkənin şöhrətini ucaldan, həm də insanların sağlamlığına xidmət edən bir sahədir. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. İdman sahəsində həyata keçirilən dövlət siyasəti nəticəsində respublikamız mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib. Bildirilib ki, bu gün muxtar respublikada bütün idman növləri kimi, futbolun da inkişafı diqqət mərkəzində saxlanılır və bu istiqamətdə uğurlu nailiyyətlər əldə olunur. Belə ki, 12 illik fasilədən sonra böyük futbola qayıdan "Araz-Naxçıvan" komandası elə ilk mövsümdən I Divizion tarixində ən çox xal toplamaqla çempionatın qızıl medalını qazanıb. "Araz-Naxçıvan" komandasının Naxçıvan Muxtar Respublika çempionatında iştirak etdiyini və ardıcıl ikinci dəfədir ki, çempionatın qalibi olduğunu bildirən Azad Cabbarov turnir iştirakçılarına uğurlar arzulayıb.

Açılış mərasiminin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyası kollektivinin ifasında konsert proqramı olub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra turnirin ilk oyununun start fiti verilib.

İlk oyunda meydana "Araz-Naxçıvan" və "Neftçala" komandaları çıxıb. Görüş Neftçala təmsilçisinin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Digər görüşdə isə "Şərurspor" və MOİK komandaları üz-üzə gəlib. Oyunun əsas vaxtı heç-heçə (2:2) başa çatdığından qalibi müəyyənləşdirmək üçün penalti zərbələri yerinə yetirilib. 11 metrlik zərbələri daha dəqiq yerinə yetirən MOİK futbolçuları finala yüksəliblər.

Qeyd edək ki, olimpiya sistemi üzrə keçirilən turnirin final görüşündə "Neftçala" və MOİK komandaları qarşılaşacaq. May ayının 27-də keçiriləcək görüş saat $17^{30}$-da başlayacaq. Üçüncü yer uğrunda görüşdə isə "Araz-Naxçıvan"la "Şərurspor" üz-üzə gələcək. Oyun may ayının 27-də saat $14^{30}$-da Naxçıvan Muxtar Respublika Stadionunda oynanılacaq.

Ceyhun MƏMMƏDOV

# Avropa çempionatı iştirakçılarının muxtar respublika ilə tanışlığı davam edir



Mayın 25-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində veteran ağır atletlər arasında keçirilən Avropa çempionatının iştirakçıları Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində olublar. Burada muzeyin bələdçisi tərəfindən qonaqlara məlumat verilib ki, muzeyin fondunda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən minlərlə eksponat toplanıb. Ulu öndər tərəfindən qəbul edilmiş qərar və sərəncamlar, imzalanmış protokol və müqavilələr, ümummilli liderə göndərilmiş məktub və teleqramlar mənalı ömür yolunun müxtəlif anlarını özündə əks etdirməklə görkəmli dövlət xadiminin zəngin dövlətçilik və ictimai-siyasi fəaliyyəti barədə dolğun təsəvvür yaradır.

Qonaqlar ulu öndər Heydər Əliyevin həyatından müxtəlif məqamları əks etdirən fotoşəkillərə, dövlət təhlükəsizliyi orqanlarında fəaliyyətinə, 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi, Moskvada Sovet İttifaqının ali rəhbərliyində çalışdığı dövrlərə, 1990-1993-cü illərdəki fəaliyyətinə, həyata keçirdiyi qurtuluş missiyasına, Ermənistanın ölkəmizə təcavüzünün nəticələrini aradan qaldırmaq sahəsində gördüyü işlərə, xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına və inkişafına göstərdiyi qayğıya, xarici siyasət sahəsində fəaliyyətinə həsr olunmuş stendlərə böyük maraqla baxıblar.

Veteran idmançıların baş çəkdiyi növbəti ünvan Duzdağ Fizioterapiya Mərkəzi olub. Qonaqlar mərkəz ilə böyük maraqla tanış olublar. Burada onlara məlumat verilib ki, dağın altına doğru 300 metr uzanan və divarları duz qayaları ilə örtülü mərkəzdə yaradılmış yüksək səviyyəli xidmət şəraiti son illərdə ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən gələn bronxial-astma xəstələri üçün əlverişli imkanlar açır. Mərkəzə ağırlaşma ilə daxil olmuş pasiyentlərin hamısı sağlamlıqlarına qovuşaraq buranı tərk edirlər. Müalicə olunanlar və onları müşayiət edənlər üçün burada nümunəvi xidmətlər təşkil olunub. Burada iki qadın, iki kişi, bir uşaq palatası və iki istirahət foyesi fəaliyyət göstərir. Yer altındakı duz dağının qalınlığı 8,2 metrdir. Havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Mərkəzdə duz layları arasında duz oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir.

Gəzinti əsnasında muxtar respublikanın İtaliyadan olan qonaqları Valter Cerrato və Ferrone Sussanna Mariela ilə həmsöhbət olduq, təəssüratlarını öyrəndik. Müsahiblərim bildirdilər ki, Naxçıvan şəhəri və onun qonaqpərvər insanları onlarda xoş təəssürat yaradıb. Naxçıvanda keçirilən bu yarışda iştirak etdikləri üçün məmnundurlar. Bu gün onlar müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin keçdiyi həyat yolu haqda dəyərli məlumatlar əldə ediblər. Duzdağ Fizioterapiya Mərkəzi onları heyran edib. Bu diyar hər addımda insanı bənzərsiz təbiət abidələri, tarixi binaları, parkları və xiyabanları ilə heyrətə sala bilir. Naxçıvan əsl turizm məkanıdır.

Rusiya Federasiyasının Samara vilayətindən gəlmiş 55 yaşlı atlet Sergey Kiryanov 2014-cü ildə Naxçıvanda keçirilən yarışda iştirak etdiyini, buradan xoş təəssüratlarla ayrıldığını bildirdi. Həmsöhbətim dedi ki, Naxçıvanda veteran ağır atletlər arasında Avropa çempionatının keçiriləcəyini eşidəndə çox sevinib. Ona görə sevinib ki, yenidən parlaq Günəşi, qonaqpərvər, istiqanlı insanları görə bilmək, gücünü təkrar naxçıvanlı idmansevərlər qarşısında sınamaq imkanı yaranıb. Naxçıvan torpağı onun üçün düşərli olub və o, mayın 24-də 140 kiloqram çəki dərəcəsində birinci yeri tutub. Yenidən buraya gəlməyi, yarışlarda iştirak etməyi arzu edir.

Məlumat üçün bildirək ki, Avropa çempionatının son gününə qədər iştirakçılar üçün gəzintilər davam etdiriləcək.

Səbuhi HÜSEYNOV

***Bu yaxınlarda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulmuş tanınmış yazıçı-dramaturq Əli Əmirlinin "Varlı qadın" tamaşasında baş rolun ifaçısı öz istedadını ortaya qoya bildi. Əsər komediya janrında yazılsa da, əslində, hadisələrin mərkəzində sosial problemlərdən doğan mənəviyyatsızlıq təqdim olunur. Əsərdə rol almış aktyorlar təbii gülüş yaradır və həm də tamaşaçını düşündürürlər. Onu qeyd etməyi xüsusi vurğulayım ki, Həvva Zərlinskaya rolunu ifa edən gənc aktrisa Nurbəniz Niftəliyevanın bu əsərdəki oyunu ona böyük uğur gətirdi.***

# Gənc aktrisanın uğurları



Bu, Nurbənizin səhnədə qazandığı ilk uğur deyil. O, gənc olmasına baxmayaraq, indiyədək yaratdığı yaddaqalan obrazlarla tamaşaçı məhəbbəti qazanıb. Nurbəniz həyatını teatrsız təsəvvür edə bilmir. Çünki özünün də dediyi kimi teatr onun üçün müqəddəs bir yerdir. Əlavə edir ki, dünyanın heç bir işotağı səhnə qədər sehrli və cazibədar ola bilməz. Çünki səhnə sevgisi Nurbənizin lap uşaqlıqdan ürəyinə hopub. O, məktəbdə keçirilən bütün mədəni tədbirlərdə fəal iştirakı ilə bu yolda ilk uğurlarını qazanıb. Qarşısına bir çox maneələr çıxsa da o, yolundan dönməyib. Bakı Mədəni-Maarif Texnikumunda bədii yaradıcılıq ixtisası üzrə təhsil alıb. Təhsilini başa vurduqdan sonra 2007-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktrisa kimi fəaliyyət göstərib.

Sonra Nurbəniz fəaliyyətini Şərur Xalq Teatrında davam etdirib. İndi isə böyük səhnədə – Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında ona tapşırılan rolları sevə-sevə ifa edir. İndiyə kimi bu səhnədə Çexovun "Russayağı evlənmə" əsərində Natalya, İslam Səfərlinin "Göz həkimi" əsərində Gülər, Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində Nina, Müzəffər Nəsirlinin "Qonçabəyim nəğməsi" əsərində Pəri, Nazim Hikmətin "Kəllə" pyesində Dalbanezonun qızı, Əli Əmirlinin "Varlı qadın" əsərində Həvva, Nəriman Nərimanovun "Nadanlıq" əsərində Gülpəri və başqa obrazları canlandırıb.

Nurbəniz müxtəlifsəpkili tədbirlərin aparıcısı kimi də diqqəti çəkir. Deyir ki, aparıcı olmağın həyəcanı tamam başqadır. Hətta mən deyərdim ki, aparıcı olmaq səhnədə hər hansı bir rolu ifa etməkdən qat-qat çətindir. Çünki burada tək olursan, birbaşa auditoriya ilə təmas yaradırsan. Tədbirin məqsədinin tamaşaçılara çatdırılması vəzifəsi aparıcının üzərinə düşür. Hər hansı bir tədbirin aparıcısı olmaq vəzifəsi tapşırılanda üzərimdə çox çalışıram.

Qeyd edim ki, Nurbəniz Naxçıvan Dövlət Universitetinin ikinci kurs tələbəsidir. O deyir:

– Ən böyük arzularımdan biri ali təhsil almaq idi. Aktrisalıq fəaliyyətimi davam etdirməklə yanaşı, qəbul imtahanlarına da hazırlaşırdım. 2014-cü ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin solo oxuma ixtisasına qəbul olundum. Bildiyiniz kimi, fəaliyyət göstərdiyim teatr musiqili dram teatrdır. Bu teatrda musiqili tamaşalar daha çox səhnəyə qoyulduğu üçün mən professional şəkildə səhnədə iştirak etmək istəyirəm. Onu da deyim ki, özümü rejissorluq sahəsində də sınayıram. Əli Əmirlinin "Varlı qadın" tamaşasının ikinci rejissoru olmuşam. Naxçıvan Dövlət Uşaq Teatrının səhnəsində göstərilən Abdulla Şaiqin "Danışan kukla" tamaşasının isə rejissoruyam.

Qeyd edək ki, Nurbəniz 2015-ci ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, "ASSİTEJ – Azərbaycan"ın birgə təşkilatçılığı ilə keçirilən Gənclərin III Ümumrespublika Teatr Festivalının "Ən yaxşı aktrisa" nominasiyasının qalibi olub. O, gənclərə göstərilən qayğını daim öz üzərində hiss edir:

– Bu gün muxtar respublikamızda gənclərə xüsusi diqqət və qayğı göstərilir. Doğma diyarımızda hər bir gəncə özünü təsdiq etməsi, yüksək bilik qazanması üçün geniş imkanlar var. Bu imkanlardan səmərəli istifadə etmək lazımdır. Belə imkanlardan səmərəli istifadə edən hər bir gənc həyatda öz yerini tutacaqdır. Mən aktrisası olduğum teatrda həmişə gənclərə göstərilən qayğını öz şəxsimdə hiss etmişəm. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 30 aprel tarixli Sərəncamı ilə bir qrup aparıcı incəsənət adamlarına Azərbaycan Respublikası Prezidentinin mükafatları verildi. Bu sərəncamda mənim də adım var idi. Bu yaşda Prezident mükafatına layiq görülməyim mənim timsalımda gənclərə göstərilən qayğının bir nümunəsidir. Belə qayğı məsuliyyətimi xeyli artırıb. Bu qayğıya əməli işlə cavab vermək üçün yaradıcılıq axtarışları aparır, qazandıqlarımla kifayətlənmir, daha böyük uğurlara nail olmaq üçün səhnənin imkanlarından istifadə etməyə çalışıram. Bu həm də mənim qədim sənət ocağına və həmişə səhnədən alqışlarla yola salan tamaşaçılara ən böyük töhfəm olar.

*Deyirlər teatr sənətçisinin zirvəsi yoxdur. Aktyor ucaldıqca ucalmalıdır. Nurbənizin də qarşısında uzun yollar var. Bu yolda ona uğurlar arzulayırıq.*

Sara ƏZİMOVA

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 402